# ...illər sonra

Çətin idi... O addımlarını sayırdı. Ona çətin idi. Uzun müddət gəlmədiyi, hətta yerlərini belə unutduğu qəbirlərlə qarşılaşmaq. Aldığı nəfəs qədər ağır idi atdığı addımlar. O tələsirdi, o gecikirdi.

İllərdi açmadığı qəbirstanlıq qapısı, qəbirlərə doğru uzanan yol dəhşətli bir həsrət oyadırdı içində. O gəlməmişdi, gələ bilməmişdi. Yox sadəcə vaxtı yoxuydu. O vaxt tapmırdı. Onda səsi ötkəm, addımları geniş, saçları qaraydı. Onda hər şey bu qədər anlamlı deyildi. Onda əlləri əsmirdi.

Üstündən illər keçmiş kiçik qəbir daşları ona baxırdı...

Məyus-məyus, küskün-küskün baxırdı. O baxışlarda sual vardı.

Ölümlərindən illər öncə tərk etdiyi, axtarıb soruşmadığı ata-anası indi yadına düşmüşdü—son günlərində.

Uzun bir sükutla yad etdiyi qəbirlərin yanından qalxıb onu çağıran o köhnə uçuq evə, ata yurduna tərəf getməyə başladı. Əsən əlləriylə əsadan bərk yapışıb son gücünü topladı. Geniş addımlarla evə yanaşdı. Toz basmış evin uçmuş divarları arasından yanıqlı bir hönkürtü ucaldı. Pozulmuş yaddaşının künclərində dalınca qaçan anası, onu səsləyən atası canlandı. Titrəyən əlləriylə otağın küncünə qoyulmuş köhnə çarpayıdan yapışdı. Anasının laylasını eşidəcəkmiş kimi gözlərini yumub uzandı.

Bir neçə gün sonra kənd camaatı köhnə uçuq komada bir qocanın meyidini tapdılar...

**Rəna HİDAYƏTQIZI,**
**Qəbələ şəhər 5 saylı tam orta məktəbin müəllimi.**

## Novruz, Ramazan, Qurban bayramları haqqında qərar

Azərbaycan Respublikasının Nazirlər Kabineti « 2015-ci ildə Novruz, Ramazan, Qurban bayramları haqqında» qərar qəbul etmişdir. Qərarda deyilir: «Azərbaycan Respublikasının 2006-cı il 18 dekabr tarixli Fərmanına əsasən, Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının və Qafqaz Müsəlmanları İdarəsinin məlumatlarına uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır: 2015-ci ildə 20, 21, 22, 23, 24 mart—Novruz bayramı,

17—18 iyul Ramazan bayramı,

24—25 sentyabr Qurban bayramıdır.

Qanunvericiliyə üyğun olaraq, həmin günlər iş günü hesab edilmir.



## Qocayev Nəsrullah Mikayıl oğlunu

**60 yaşı tamam olması münasibətilə ailə üzvləri təbrik edir, ona can sağlığı, daha uzun ömür və həyatda xoşbəxtlik arzulayırlar.**

## Əzizimiz Elçin!



**7 yaşın münasibətilə atan Əzizağa, anan Həyat, baban, nənən qohumların səni təbrik edirlər.**

**Ömrün uzun, gələcəyin həmişə şən və parlaq olsun.**

# Yeni il şənliyi ərəfəsində yanğın təhlükəsizliyi

Yeni il şənliklərində və insanların kütləvi toplaşdıqları digər yerlərdə tədbirlər keçirilən zaman:

—ən azı iki ehtiyat çıxış qapısı qoyulan, tikinti norma və qaydalarına tam cavab verən, 2 mərtəbədən yuxarı olmayan və yanmayan arakəsmələri olan binalarda tədbir keçirilməsinə icazə verilir;

—bəzəkli şam ağacı qurularkən yerə möhkəm bərkidilməli və elə qurulmalıdır ki, ağacın budaqları divara, tavana dəyməsin;

—otaqlarda işiqlandırma sistemi olmadıqda tədbir yalnız gündüzlər keçirilməlidir;

—şam ağacının bəzədilməsində istifadə olunan lampalar ardıcıl qoşulmalı və bu zaman gərginlik 12 voltdan, cərəyan 25 vatdan artıq olmamalıdır;

—əgər elektrik təsərrüfatında nasazlıq yaranarsa (naqillərin qızması, lampaların yanıb-sönməsi, qığılcım çıxması və s.), cərəyan dərhal ümumi dövriyyədən ayrılmalıdır.

## Qadağandır:

—otaqların pəncərələrində dəmir barmaqlıqlar olduqda tədbirlərin keçirilməsi;

—atəşfəşanlıq məqsədilə partlayıcılardan, güclü projektorlardan, şamlardan, fişənglərdən və digər yanğın təhlükəli işıqlandırıcı maddələrdən istifadə edilməsi;

—şam ağacının bəzədilməsi zamanı selloiddən hazırlanmış oyuncaqlardan, o cümlədən odadavamlı məhlul hopdurulmayan cuna pambıqdan istifadə olunması;

—uşaqlara tezalışan materiallardan tikilən kostyumların geyindirilməsi;

—tədbir zamanı qaynaq, rəngləmə və digər yanğıntörədici partlayış təhlükəli işlərin görülməsi;

—oturacaqların ara məsafəsinin azaldılması, əlavə stul və kreslolar qoyaraq cərgəarası keçidlərin bağlanması;

—tamaşa vaxtı zalın işığının tam söndürülməsi;

—nəzərdə tutulduğundan artıq insanların zala buraxılması;

—yanğın təhlükəsizliyinə cavabdeh olan növbətçilərin və yanğın təhlükəsizliyi orqanı əməkdaşlarının olmadığı zaman tədbirlərin keçirilməsi.

**Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidməti**

# 1200 il geriyə qayıtdıqda...

***VIII əsrdə Qərbi Avropada mövcud olmuş Frank imperiyasının kralı Böyük Karlın oğlu Pipinin sevimli müəllimi Alkuinlə sual-cavabı:***

—Hərf nədir?
—Tarixin keşikçisi.
—Söz nədir ?
—Qəlbin xaini.
—Sözü doğuran nədir?
—Dil.
—Dil nədir?
—Havadan gələn bəla.
—Hava nədir?
—Həyatı saxlayan.
—Həyat nədir?
—Xoşbəxtlər üçün sevinc, bədbəxtlər üçün dərd, ölümü gözləmək.
—Ölüm nədir?
—Naməlum şərait, naməlum yol, sağ qalanlar üçün göz yaşı, vəsiyyətlərin yerinə yetirilməsi, insan üçün yolkəsən.
—İnsan nədir?
—Qocalığın qulu, yolkeçən yolçu, öz evində qonaq.
—İnsan kimə oxşayır?
—Şara.
—İnsan necə yerləşib?
—Küləkdə çıraq kimi.
—O nə ilə əhatə olunub?
—Altı divarla.
—Hansılardır onlar?
—Yuxarıdan, aşağıdan, qabaqdan, arxadan, sağdan və soldan.
—Onda neçə dəyişiklik olur?
—Altı.
—Onlar hansılardır?
—Aclıq və toxluq, istirahət və əmək, ayıqlıq və yuxu.
—Yuxu nədir?
—Ölümün surəti.
—İnsanın azadlığını nə təşkil edir?
—Günahsızlıq.
—Baş nədir?
—Bədənin zirvəsi.
—Bədən nədir?
—Ruhun mənzili.
—Tüklər nədir?
—Başın paltarı
—Saqqal nədir?
—Cinslərin fərqi və yetkin yaşın şərəfi.
—Beyin nədir?
—Yaddaşın keşikçisi.
—Gözlər nədir?
—Bədənin rəhbərləri, işıq qabı, ürəyin güzgüsü.
—Burun deşiyi nədir?
—Qoxunun bələdçisi.
—Qulaqlar nədir?
—Səsləri yığan.
—Alın nədir?
—Qəlbin surəti.
—Ağız nədir?
—Bədənin qidalandırıcısı
—Dişlər nədir?
—Dəyirman daşları.

**Göndərəni:**
**Aysun RƏSULOVA,**
**Soltannuxa kənd tam orta məktəbin X sinif şagirdi.**


# Elanlar

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 noyabr 1997-ci il tarixli 26 saylı qərarla Daşlıca kənd sakini **İsrəfilova Sona Bayram qızının** adına verilmiş 357,9 kvadrat metr torpaq sahəsi haqqında JN-204 C №-li (kodu 40608028) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 noyabr 1977-ci il tarixli 26 saylı qərarla Daşlıca kənd sakini İsrəfilova Sona Bayram qızının adına verilmiş 6224,2 kvadratmetr torpaq sahəsi haqqında JN-204 A №-li (kodu 40608028) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Polis Şöbəsi tərəfindən 24 may 2011-ci il tarixdə Zarağan kənd sakini **Əhmədov Nihad Nahib oğluna** verilmiş AZE №083 /5820 №-li Azərbaycan Respublikası vətəndaşının **şəxsiyyət vəsiqəsi** itdiyi ücün etibarsız sayılır.

Qəbələ rayonu Bum qəsəbə məscidi dini icmasının (55 №-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 10 dekabr 2014-cü il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam qəsəbə (kənd) sakini **Hüseynov Rüstəm Bünyamin oğlunun** adına verilmiş JN-767B nömrəli (kodu 40600048) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.